**Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 4 may tarixli 1490 nömrəli Sərəncamında nəzərdə tutulmuş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək Tədbirlər Planı"nın 2.1.21-ci yarımbəndinin icrası, habelə Böyükşor gölünün bərpa edilməsi, mühafizəsi və istifadəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Bakı şəhərində yerləşən Böyükşor gölünün (bundan sonra - Göl) istifadəsi və mühafizəsi sahəsində idarəetmə Azərbaycan Respublikasının *Ekologiya və Təbii Sərvətlər* ~~və Sənaye~~ Nazirliyinə həvalə edilsin.[1]

2. Azərbaycan Respublikasının *Ekologiya və Təbii Sərvətlər* ~~və Sənaye~~ Nazirliyi:

2.1. Gölün (onun mühafizə zonasının) bərpa edilməsini (o cümlədən Göldə (onun mühafizə zonasında) mövcud olan istehsalat və məişət tullantılarının kənarlaşdırılmasını), mühafizəsini, ekoloji vəziyyətinin yaxşılaşdırılmasını və gələcəkdə ondan səmərəli istifadə olunmasını təmin etsin, habelə qorunub saxlanılmasına nəzarəti həyata keçirsin;

2.2. bu Fərmanın 3-cü və 4-cü hissələrində nəzərdə tutulmuş işlərin idarə edilməsini təmin etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Gölə (onun mühafizə zonasına) tullantı sularının axıdılmasının qarşısının alınması üçün zəruri tədbirlər görsünlər.

4. Bakı Şəhər İcra Hakimiyyəti Gölə (onun mühafizə zonasına) istehsalat və məişət tullantılarının atılmasının, Gölün səthinin azalmasına səbəb olan kənar yerlərdən torpaq qruntunun daşınması və yayılmasının qarşısının alınmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. bir ay müddətində Gölün (onun mühafizə zonasının) sərhədlərini dəqiqləşdirsin;

5.2. Azərbaycan Respublikası *Ekologiya və Təbii Sərvətlər* ~~və Sənaye~~ Nazirliyinin əsaslandırılmış hesablamalarına uyğun olaraq bu Fərmanın 2.1-ci bəndində və 3-cü hissəsində nəzərdə tutulmuş işlərin həyata keçirilməsinin maliyyələşməsini təmin etsin;

5.3. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Gölə aid bütün sənədləri və digər məlumatları bir ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinə təhvil versin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 dekabr 2013-cü il
61

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384)**
2. 25 fevral 2021-ci il tarixli **1292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 fevral 2021-ci il, 44 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2 maddə 134)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )** ilə 1-ci, 2-ci hissələrdən və 5.2-ci bənddən "**və Sənaye**" sözləri çıxarılmışdır.

25 fevral 2021-ci il tarixli **1292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 26 fevral 2021-ci il, 44 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 2 maddə 134)** ilə 1 - 2-ci hissələrdə və 5.2-ci bəndində "**İqtisadiyyat**" sözü "**Ekologiya və Təbii Sərvətlər**" sözləri ilə əvəz edilmişdir.